

**Taleh Cəfərov**

*ADPU-nun Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru*

# Şərqi Türküstan Türklərinin milli-azadlıq mübarizəsi

## (XIX-XX ƏSRLƏR)

(əvvəli ötən sayımızda)

***Əgər ziyarət baş tutarsa depozit olaraq qoyulan məbləğ dövlət tərəfindən mənimsənilir. Həmçinin dini öyrənmək və ya öyrətmək qanunla qadağan edilmişdir. Yaxalandıqları zaman həm müəllim, həm də şagird həbs edilməklə, uşaqlara, onların ailələrinə və dini təhsil üçün yer, məkan ayıranlara ağır pul cəzaları verilməkdədir.***

***Çin hökuməti 2006-cı ildən bu tərəfə uyğur qızların məcburi şəkildə ölkənin daxili bölgələrdəki fabriklərdə çalışmaq məqsədi ilə götürülür. Şərqi Türküstan qadınlarına 2 uşaq doğmaq haqqı verilmişdir. Bölgənin cənub ərazilərində yaşayan və iki qızı olan hər bir ailə qızlarından birini fabriklərdəişləməklə Çin dövlətinə verməlidir. Bu qızların yaşı 16-25 arasında dəyişməkdədir. Digər tərəfdən seçilən qızların bir qismi uzun müddət ailələri ilə heç bir əlaqə qurmadan bir tikə çörəyə işləyirlər. Bir qisminin aqibəti ümumiyyətlə bəlli deyil. Bu qızlar evlənmək üçün qadın tapa bilməyən çinlilərə və qadın alveri ilə məşğul olan kişilərə satılır. Şərqi Türküstanın paytaxtı Urumçidə yayınlanan 'İqtisad'' qəzetinin verdiyi məlumatlara görə 2009-cu ilə qədər bölgədən aparılmış qızların ümumi sayı 200 min nəfəri ötmüşdür. Dünyanı bürüyən iqtisadi böhran nəticəsində Çinin cənub bölgələrində minlərlə fabrik bağlanmış və milyonlarla gənc qızlar ölkələrinə geri qaytarılmışdır. Bütün bunlara baxmayaraq, sadəcə Şərqi Türküstanın Peyzavat nahiyyəsindən fabriklərə işləməyə aparılan 6052*** qızın heç biri geri qaytarılmamışdır.

Çinin XXI əsrdə Şərqi Türküstanda tətbiq etdiyi sümürgəçilik siyasəti "Qərb İnkişaf Planı'' adlanır. Pekin hökuməti tərəfindən idarə edilən planın məqsədləri aşağıdakı üç başlıq altında ümumiləşdirilmişdir:

1. Bölgədəki təbii qaynaqları talayaraq Çinin getdikcə artan enerji tələbatlarını ödəmək;
2. Şərqi Türküstana daha çox çinli əhalini köçürtmək, rifah və təhlükəsizlik atmosferi yaradaraq çinli köçkünlərin müxtəlif iqtisadi və məskunlaşdırma problemlərinə çözüm tapmaq;
3. Çinin Qərbə açılan qapısı olan bölgə üzərində daha ciddi bir nəzarət mexanizmi quraraq ölkə təhlükəsizliyini təmin etmək.

Planın icrası Pekin tərəfindən Sincan İstehsalat və İnkişaf birlikləri tərəfindən hərbçilərin iştirakı ilə həyata keçirilir. Ən zəngin əkin sahələri, o cümlədən şirin su qaynaqları bu birliklər tərəfindən zəbt edilmişdir. Bu vəzifəni uğurla yerinə yetirmək üçün birliyin silahlı polis və hərbi qüvvələrindən ibarət təhlükəsizlik orqanları (2,5 milyon nəfər) mövcuddur. Hökumət uyğur vətəndaşlarının boş qalmış evlərin "Ey gənc! Qərbə get'' şüarı altında çinli gəncləri köç etməyə təşfiq edir.

1980-ci illərdən etibarən sənaye müəssisələrinin artması nəticəsində enerjiyə tələbatı artan Çin Beynəlxalq Enerji Agentliyinin 2008-ci il məlumatlarına görə, enerji istehsalında ikinci yerə yüksəlmişdir. Müasir dövrdə Şərqi Türküstan bir tərəfdən ballistik raketlərlə Çinin strateji müdafiə sistemlərindən bir qismini təmin edərkən, bir yandan da Çinin nüvə sınaqlarının keçirildiyi ərazi hesab olunur. Durum Çinin bu əraziləri nəyə görə əlində saxladığını görməyə imkan verir.

***26 iyun 2009-cu ildə Çinin Quandun əyalətinin Şaoquan şəhərindəki Hurui adlı oyuncaq fabrikində 5 mindən artıq çinli fəhlənin 300-ə yaxın uyğur türkünə qarşı hücumu nəticəsində 60-dan artıq uyğur fəhləsi qətlə yetirilmiş, 150-dən artığı isə ağır yaralanmışdır. Buna cavab olaraq, Urumçidə 5 iyul 2009-cu ildə uyğur gəncləri və universitet tələbələri tətil keçirdilər. Nümayişçilər baş verən olaylar haqqında həqiqəti açıqlamağı, cinayətkarların cəzalandırılmasınıtələb etdilər. Çin polisinin uyğurların nümayişinə sərt müdaxiləsi ikinci bir Tiananmen qətliamına yol açdı.***

Çin hökuməti öldürülənlər üçün cənazə törəni düzənləməsinə belə icazə vermədi. Olaylardan bir neçə gün sonra bölgəyə 22 min hərbçi gətirildi. Minlərlə uyğur həbs edildi, gecə küçələrə çıxmaq qadağan edildi, bölgənin internet şəbəkəsi və telefon xətləri kəsildi. Hadisələrin bölücülər tərəfindən həyata keçirildiyini açıqlayan hökumət olayların əsas təşkilatçılarının Dünya Uyğur Qurultayı və Rabia Qadir olduğunu elan etdi. Hadisələrdən iki gün sonra Urumçiyə səfər edən Türkiyə prezidenti Abdullah Gül çinlilər və uyğur türkləri tərəfindən isti qarşılandı.

XIX əsrdə Şərqi Türküstan ərazisində yaşayan qeyri-türklərin (çinli, mancur, monqol) ümumi sayı 600 min nəfərdən ibarət idi. Bu da bölgə əhalisinin cəmi 9%-inə bərabər idi. Yerdə qalan 91%-ini isə müsəlman uyğurlar təşkil edirdi. Müasir dövrdə Çin rəsmi olaraq özünü "56 etnik qrupdan formalaşan çox millətli, tək bir millət'' şəklində ifadə etməkdədir. 2000-ci ildə aparılan əhalinin 5-ci siyahıyaalınmasına görə ölkədə etnik azlıqların ümumi sayı 18 milyon nəfər müəyyən edilmişdir. Çin əhalisi ümumi əhalinin 92%-ini təşkil etdiyi üçün digər xalqlar barəsində "etnik azlıqlar'' ifadəsi işlətməkdədir.Bu gün sayları 30 milyon olaraq təxmin edilən Şərqi Türküstan əhalisinin 54%-i uyğur və qazax türklərindən, yerdə qalan hissəsi də çinlilərdən ibarətdir. Hökumət Şərqi Türküstandakı uyğurların ümumi sayının 8,5 milyon nəfər olduğunu və onların 90%-nin islam dininə tapındığını iddia edir. Lakin hökumətin uyğurların bölgədəki əhalinin sayına görə 60%-ini təşkil etdiklərinə dair iddiaları həqiqəti əks etdirmir. Bölgədəki çinli əhalinin də 7,5 milyon nəfər olduğu, əhalinin 40%-ini təşkil etdiyi ilə bağlı rəqəmlər əsassızdır. Əslində isə təxmini hesablamalara görə, bu gün Şərqi Türküstanda 18-25 milyon nəfər arasında uyğur türkü yaşamaqdadır.

Burada ali məktəblərə daxil olmaq olduqca çətindir. Birincisi, uyğurlar üçün çox kiçik kvotanın ayrılmasıdır. İkincisi də, universitetlərdəki təhsil haqları olduqca yüksəkdir. Uyğurlar bu imkana malik olmadıqları üçün təhsillərini yarımçıq qoyaraq yenidən tarlaya qayıtmalı olurlar. Halhazırda universiteti bitirərək əmək fəaliyyətinə başlayan gənclərin yalnız 10%-i işlə təmin edilmişdir. Əksinə olaraq çinli tələbələrin 90%-i işlə təmin edilmişdir. Qeyd edək ki, Şərqi Türküstandakı universitetlərdə təhsil çincə aparılır. Hökumətin dövlət qulluğu imtahanlarında uyğurlara ayrılan iştirak yerləri azaldılmış, əksinə çinlilər üçün artırılmışdır. Dövlət orqanlarında çalışan uyğur gəncləri gündəlik təxminən 15 saat işlədikləri halda aldıqları bir aylıq əmək haqqı 500 yuan (110 YTL) belə deyildir. Lakin eyni işi görən bir çinli işçinin həmən müəssisədə aldığı əmək haqqı 3 min yuan (təxminən 670 YTL) təşkil edir. Qeyd edək ki, Şərqi Türküstanda xalqın 50%-i uyğur türkcəsi ilə ünsiyyət saxlamasına rəğmən bölgədə türk adlarını işlətmək qadağan edilmişdir.

Son illərdə Türküstanın qərbində yerləşən Kaşqardakı tarixi abidələr məhv edilməkdədir. Urumçidə tarixi saray, çeşmə və mədrəsələrin olduğu 2 məhəllə tamamilə məhv edilmiş, yerində müasir binalar inşa edilmişdir. Kaşqarda türk dünyasının ən görkəmli mütəffəkirlərindən biri olan Mahmud Kaşqarlının təhsil aldığı islam dünyasının orta əsrlər dövrünün ən böyük mədrəsələrindən olan Xanlıq mədrəsəsi dağıdıldı. Qeyd edək ki, memar və tarixçi George Mişel 2008-ci ildə yazdığı "Kaşqar: qədim ipək yolundakı vahə'' adlı kitabında bu şəhəri "Mərkəzi Asiyada mövcud inkişaf etmiş İslam şəhərlərinin ən yaxşı qorunmuş örnəyi'' adlandırmışdır. Lakin bu gün Çin hökuməti tərəfdən bu gözəl şəhər məhv edilmə təhlükəsi ilə üzləşmişdir.

***Partiya yaratmaq, dəmək və vəqf qurmaq, azad mətbuat tamamilə qadağandır. Özəl məktəblərin açılması da yasaq edilmişdir. Bütün kitabxanalar dövlətin nəzarəti altındadır. Minlərlə cildlik kitablar Çin siyasətinə "zidd'' olduğu üçün məhv edilmişdir. 1950-ci illərdən sonra Şərqi Türküstan universitetlərinin adı dəyişdirilmiş, bu universitetlərdən məzun olmuş tələbələr isə sıxışdırılmış və müxtəlif təzyiqlərə məruz qalmışdırlar. Şərqi Türküstanda çıxarılan və digər bölgələrdən gətirilən musiqi kasetləri belə Çin Mədəniyyət Nazirliyi və Təhlükəsizlik orqanları tərəfindən ciddi şəkildə yoxlanılır. Uyğurlar tərəfindən çəkilən filmlərin nümayişinə qoyulan başlıca tələb aktyorların birinin mütləq çinli olması və müsbət rolu canlandırmasıdır.***




***Son illərdə Türküstanın qərbində yerləşən Kaşqardakı tarixi abidələr məhv edilməkdədir. Urumçidə tarixi saray, çeşmə və mədrəsələrin olduğu 2 məhəllə tamamilə məhv edilmiş, yerində müasir binalar inşa edilmişdir. Kaşqarda türk dünyasının ən görkəmli mütəffəkirlərindən biri olan Mahmud Kaşqarlının təhsil aldığı islam dünyasının orta əsrlər dövrünün ən böyük mədrəsələrindən olan Xanlıq mədrəsəsi dağıdıldı. Qeyd edək ki, memar və tarixçi George Mişel 2008-ci ildə yazdığı "Kaşqar: qədim ipək yolundakı vahə" adlı kitabında bu şəhəri "Mərkəzi Asiyada mövcud inkişaf etmiş İslam şəhərlərinin ən yaxşı qorunmuş örnəyi" adlandırmışdır. Lakin bu gün Çin hökuməti tərəfdən bu gözəl şəhər məhv edilmə təhlükəsi ilə üzləşmişdir.***